# Qəlblərdə ucalan heykəl

Ulu öndər Heydər Əliyevin xatirəsi hər kəndin, hər bölgənin, hər şəhərin sakinləri—bütövlükdə Azərbaycan xalqı üçün əzizdir. Məhz bu səbəbdən insanlar özlərinin yaşadıqları məkanda ümummilli liderin xatirəsinə abidə ucaltmış, muzey yaratmış, park salmış və bunu böyük məhəbbət, ehtiramla həyata keçirmiş və keçirirlər. Bu ünvanlarda yaşayan yaşlı nəsil ötən illəri Azərbaycanın ulu öndərin dühası ilə keçdiyi mübarizə və yüksəliş yolunu bir daha xatırlayırlar, gənclər isə tariximizi öyrənir, vətənə, xalqa xidmət etmək nümunəsi göstərirlər.





Təqdirəlayiq haldır ki, rayonumuzda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzində ümummilli liderin adı ilə bağlı ünvanlarda yeniyetmələrə, gənclərə daha çox rast gəlmək mümkündür. Onlar ulu öndərin keçdiyi şərəfli həat yolu ilə tanış olur, eyni zaman bir sıra gərəkli söhbətlər dinləyir, tədbirlərdə iştirak edir. Bir sözlə, çox şey görüb-götürür, zəngin təcrübə qazanırlar.

Ulu öndərə sevgi və ehtiramdan yeni-yeni ənənələr yaranır, Vətən qarşısında əsgəri borcunu yerinə yetirməyə gedənlər, ali məktəbə qəbul olunan, təhsilini başa çatdıran gənclər ümummilli liderin abidəsinin önünə gəlir, ömürlərinin ən sevimli, məsuliyyətli günlərində ulu öndərə ehtiramlarını ifadə edirlər.

Qəbələdə Heydər Əliyev adı ilə bağlı hər ünvan, şərəfinə ucaldılan abidə insanlar üçün əzizdir.

Səhrab Umuyevin bu fotoları hər kəsin qəlbində ulu öndərə məhəbbət və hörmətdən yoğrulmuş heykəli əks etdirir.

**Aslan Cəlilov.**

# Heydər Əliyev xatirələrdə yaşayır və yaşayacaqdır

7 dekabr 2015-ci il tarixində ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçiləri və Bum qəsəbə, Qəmərvan, Həmzəli, Şamlı, Şəfili, Cığatelli, Yemişanlı, Dizaxlı, Tikanlı, Çarxana, Çuxur Qəbələ, Xırxatala, Uludaş, Qaradeyn və digər kənd inzibati ərazi üzrə nümayəndəliklərinin və bələdiyyələrinin əməkdaşları Qəbələ rayon Heydər Əliyev Mərkəzində olmuşlar. İlk öncə tədbir iştirakçıları ulu öndərin büstü önünə tər gül dəstələri qoyaraq, onun xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Sonra ümummilli lider Heydər Əliyevin həyatının müxtəlif anlarını əks etdirən ekspozisiya zalına tamaşa etmişlər. Burada onlara ulu öndərin həyatı və fəaliyyəti, onun Azərbaycan xalqı qarşısında göstərmiş olduğu misilsiz xidmətlər haqqında ətraflı məlumat verilmişdir.



**Heydər Əliyev Mərkəzi.**
**Foto İ. Vəlizadənindir.**

# Ən böyük silahımız vətənə sevgimizdir!

**Vətən!** Mənim üçün ən əziz kəlmələrdir ana və vətən. Yaşayıb-yaratdığımız, rahat gəzib-dolaşdığımız, nəfəsimizi rahat alıb-verə bildiyimiz bir yerdir ana Vətən. "Vətən, uğrunda ölən varsa, Vətəndir!"—deyib müdriklərimiz. Azərbaycan xalqı öz Vətəni uğrunda ölməyi bacaran bir xalqdır. Bu xalqa silah lazım deyil. Onun ən böyük silahı bu vətənə sevgisidir. Bu sevgini hər bir gənc vətəndaşımızın köksündə alovlandırmaq biz müəllimlərin bilavasitə borcudur. Məhz, bunu nəzərə alaraq Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 26 noyabr 2015-ci ildə növbəti tədbir keçirildi. Bu tədbir oktyabr və noyabr ayları ərzində Azərbaycan Respublikasının Bayraq Günü, Müstəqillik Günü, Milli Dirçəliş Günü və Konstitusiya Gününün yekunlarına həsr olunmuşdu.

"Ən böyük silahımız Vətənə sevgimizdir!" mövzusunda baş tutan tədbiri mərkəzin direktoru Eyvaz Kazımov açıq elan etdi. O, çıxışında şagirdlərimizin təlim-tərbiyəsi və əldə etdikləri bilik və bacarıqları ilə yanaşı onlarda vətənpərvərlik hisslərinin inkişaf etdirilməsinin də vacib olduğunu vurğuladı.

Tədris ocağının direktor müavini Reyhan Məmmədova qeyd olunan hər bir tarixi gündə şagirdlərdə Vətən sevgisinin artdığını və möhkəmləndirildiyini qeyd etdi.

—Vətənimizi sevmək üçün ilk öncə onu yaxından tanımalıyıq—deyən mərkəzin ingilis dili müəllimi Aslan İslamov şagirdlərin doğma yurdumuz haqqında biliklərinin artırılmasında həmişə yardımçı olmağa hazır olduğunu söylədi.

İngilis dili müəllimi Könül Qiyaslı hər birimizin qəlbində Vətən sevgisinin əvəzsiz olduğuna inandığını bildirərək Vətənə olan sonsuz məhəbbətini müdrik deyimlərlə, hədsiz və sonsuz gözəlliklərindən bəhs etməklə şagirdlərə çatdırdı. İstehsalat təlimi ustaları Azər Abdulxalıqov və Səbinə Cahangirli isə çıxışlarında şagirdlərə vətənpərvərlik mövzusundakı biliklərin dərs müddətində də necə aşılamaq lazım gəldiyini qeyd etdilər. Hər iki müəllim hər bir azərbaycanlının müqəddəs məkanı Vətən olduğunu vurğuladılar.

Mərkəzdə təhsil alan şagirdlər tərəfindən səsləndirilən vətənpərvərlik şeirləri onların öz vətənlərinə bağlılıqlarını bir daha nümayiş etdirdi.

Mərkəzin direktoru E. Kazımov tədbiri yekunlaşdıraraq təhsil ocağımızda vətənpərvərlərin yetişdiyindən qürur hissi duyduğunu bildirdi.

Məncə, qəlbində Vətən sevgisi var olanlar xoşbəxtdirlər. Azərbaycan xalqının vətənpərvər bir xalq olduğuna inanaraq onun xoşbəxt olduğuna əminəm. Məndən soruşsalar ki, ən abad məkan haradır, deyərdim Azərbaycandır!

Ən xoşbəxt həyat da deyərdim Azərbaycandadır!

**Gülər KƏRİMOVA,**
**Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin müəllimi.**

## Doğma ölkəmizdə

### İqtisadiyyatda çalışanların orta aylıq əməkhaqqı 461,1 manatdır

2015-ci il oktyabr ayının 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 506 min 300 nəfər olub. Onlardan 877 min 100 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 629 min 200 nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərib.

İlin Yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,4 faiz artaraq 461,1 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informsiya və rabitə, peşə, elmi və texniki sahələrində orta aylıq əməkhaqqı daha yüksək olub.

* * *

### Qeyri-neft sənaye məhsulları istehsalı 10,2 faiz artmışdır

Məlum olduğu kimi ölkə iqtisadiyyatında əsas yeri neft sənayesi tutur. İqtisadiyyatın neft-qaz asılılığının yaratdığı problemlər bu günki iqtisadi duruma görə hamıya yaxşı məlumdur. Odur ki, ölkə başçısı cənab Prezident ölkə iqtisadiyyatının neft-qaz asılılığından qurtarması üçün qeyri-neft sənayesinin inkişaf etdirilməsini vacib məsələ kimi ön plana çıxarmışdır. Son zamanlar isə ölkədə bu siyasətin uğurları nəzərə çarpmaqdadır. Bunun üçün dövlətin ayırdığı kreditlər bölgələrdə bu sektorun inkişafında mühüm rol oynayır.

Hazırda ölkədə 40 quşçuluq təsərrüfatı, 20 heyvandarlıq və 8 quşçuluq kompleksi, 7 ətkəsmə və emalı müəssisəsi, 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatı, 37 istixana kompleksi və 16 meyvə-tərəvəz emalı müəssisəsi yaradılmışdır. Ötən il—«Sənaye ili»ndə təkcə regionlarda 105 müəssisə istifadəyə verilib. Əgər keçən il qeyri-neft sənayesində 9 faiz artım müşahidə edilmişdirsə bu ilin yanvar-sentyabr aylarında artım daha 2,1 faizə çataraq 19,7 milyard manatlıq məhsul istehsal olunmuşdur. Beləliklə, sənayenin qeyri-neft sektorunda istehsalın artımı daha çox olmuş və 10,2 faizə çatmışdır. Qeyd olunan dövrdə sənayedə özəl sektorun payı 76,6 faiz olmuşdur.

**Nadir ATAKİŞİYEV.**